## MƏTBUAT ÜÇÜN AÇIQLAMA

# Azərbaycan Türkiyə Amerika Fondu (ATAF) yaradılmışdır

**No: 08/29/78**
**31.10.2008**

2008-ci ilin oktyabr ayında ABŞ-da Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri Ahmet Erentokun təsisçiliyi ilə Azərbaycan Türkiyə Amerika Fondunun (ATAF US) yaradılması prosesi yekunlaşdırılmış və Fond fəaliyyətə başlamışdır. Daha əvvəl ATİB-in beynəlxalq layihələr üzrə müşaviri kimi çalışan Louette Ragusa Fondun icraçı direktoru təyin edilmişdir.

Mənzil qərargahı Vaşinqton şəhərində yerləşən Fondun yaradılmasında əsas məqsədlərdən biri ABŞ-da mövcud olan Azərbaycan və Türkiyə cəmiyyətlərini bir araya gətirərək onların fəaliyyətində vahid koordinasiyaya nail olmaqdır. Digər bir məqsəd isə Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondu (ATAF) ilə əməkdaşlıq çərçivəsində ATAF tərəfindən nəşr edilən çap materiallarının, həmçinin hazırlanan rəqəmli (digital) materiallarının ABŞ ictimaiyyəti arasında yayılmasına yardım etməkdir. Eyni zamanda, ATAF US-in digər bir məqsədi iki ölkənin ortaq problemi olan erməni problemi məsələsi üzrə ABŞ-da yaşayan Azərbaycan və Türkiyə cəcmiyyətlərinin məsələ ilə bağlı bilgi əksikliyini aradan qaldırmaq olacaqdır. Eyni zamanda, ABŞ ictimaiyyətinin digər nümayəndələri arasında da eyni məqsədlə iş aparılacaqdır. Bunun üçün müvafiq treyninqlər və seminarlar təşkil ediləcəkdir. Bütün bunları həyata keçirmək üçün ATAF US və ATAF arasında müvafiq əməkdaşlıq sazişinin imzalanması planlaşdırılır.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

ATAF US-in digər bir məqsədi isə ABŞ-ın hakimiyyət orqanlarında, Ağ Evdə, Senatda və Konqresdə Azərbaycanın və Türkiyənin maraqları ilə bağlı lobbiçilik etmək olacaqdır. Bunun üçün ATAF US ABŞ-da fəaliyyət göstərən ən müxtəlif təşkilatlarla, o cümlədən “think tank”larla və digər QHT-lərlə çalışacaqdır.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**